# Bir əlində qələm, birində silah

*Mərziyyə Üskuinin evi səngər, sevgilisi silah, qucağının körpəsi tüfəng, belinin kəməri patrondaş, barmağının üzüyü tapança tətiyinin qabarı, dırnağının manikürü al qanı, sinəsinin medalyonu güllələr, gəlinlik örpəyi Qəsr qalasının dəmir barmaqlıqları, gərdəyi qaranlıq, rütubətli zindan, ayağına səpiləcək çiçəklər isə Avropanın yad yolları olmuşdur.*



*Şeir yazan əllərin*
*Silaha da sarıldı.*
*Əllərin nə silahdan,*
*Nə qələmdən ayrıldı,*
*Mərziyyə.*

**(Mədinə Gülgün "Mərziyyə")**

Xalqımızın azadlıq mücahidləri səngərlərində bir əlində qələm, birində silah fədailərlə bir sırada addımlayan və düşmənə qarşı gərgin mübarizə aparan söz ustalarımız az olmamışdır. 1906-cı il İran inqilabında fəal iştirak etmiş Mirzə Əlixan Ləli, Məşrutə hərəkatı dövründə sözü və süngüsü ilə düşmənlərə atəş yağdıran, səngər vuruşlarında qəhrəmancasına şəhid olan Səid Səlmasi, əlində silah şah qoşunlarına qarşı mərdliklə döyüşən Xazin Təbrizi, Məşrutə hərəkatında cəsur döyüşçü kimi iştirak edən Mirzə Qafar Siyahpuş və başqalarının adları Vətənin azadlıq hərəkatı salnaməsinə fədai-şair kimi həkk edilmişdir.

21 Azər hərəkatının fəal iştirakçısı, zindanda qətlə yetirilən Əli Fitrət, hiylə toru ilə ələ keçirilib başı bədənindən ayrılaraq ağsaçlı anasının qarşısına atılan Sədi Yüzbəndi, vəhşicəsinə qətlə yetirilən Səfər Məmmədzadə Kaşif, həbsə atılan Mir Mehdi Etimad, edamı haqqında fərman verilən Hilal Nasiri və ağır yaralanaraq huşsuz halda ələ keçirilib güllələnən Əlirza Nabdil Oxtay kimi şairlərlə bir sırada, düşmənlə üzbəüz vuruşda neçə-neçə şah nökərini öldürdükdən sonra şah cəlladları tərəfindən sinəsinə tuşlanan aramsız güllələrə mərdliklə sinə gərib şəhid olan Mərziyyə Əhmədi Üskui kimi unudulmaz sənət yolçularının da xalq hərəkatı salnaməsində çox şərəfli mövqeləri vardır.

Mərziyyə Əhmədi Üskui Azərbaycan xalqının qılınc və qələm qüdrətini bütün dünya qarşısında nümayiş etdirmiş həmişəyaşar bahadırlarındandır. O, vətənini, xalqını, doğma ana dilini ürəkdən sevən, onların azadlığı yolunda daim mübarizə aparan və canından belə keçən bir vətəndaş, şair, nasir, publisist, müəllim və inqilabçı olmuşdur. Həyatlarını Vətəninin, xalqının şanlı sabahı naminə mübarizəyə həsr etdikləri üçün məhbəsə düşən, işgəncələr görən, öldürülən bir çox Cənubi Azərbaycan şairi kimi M.Üskui də dəfələrlə zindanlara, hətta adı bəlli Qəsri-Qacar zindanına salınmış, ağır işgəncələrə məruz qalmış, lakin düşmən qarşısında əyilməmiş, qürurunu, mənliyini qoruyub saxlamış, Vətəninin layiqli övladı olduğunu əməlləri ilə sübut etmişdir.

"Şirin laylası beşikdə qandallanan" Mərziyyə həyatı boyu baş verəcək bütün çətinliklərə dözə bilməsi üçün sanki uşaqlıqdan hazırlanmışdı, iradəsi ilə birlikdə bütün vücudu da möhkəmləndirilmişdi. O, dünyanın nəşəsini yaşamağa deyil, dünyanın dərdini daşımağa, ondan umduğunu götürməyə yox, ona öz odundan nur verməyə, dünyada olanları saf-çürük edib olmayanları yaratmağa və yaşatmağa gəlmişdi həyata. Mərziyyə haqq, həqiqət istəyirdi. Onu başqalarından fərqli olaraq nağıllarda deyil, həyatda çox axtardı, amma tapa bilmədi. Haqq yalnız ürəklərdə sızım-sızım sızladı, göz yaşı tökdü. Onu "öz gözümlə gördüm" deyən olmadı. Ona görə də Mərziyyə deyirdi ki, "Həqiqətə qurban gedənlərin qanlarının axıdılması, diri-diri dərilərinin soyulması, tonqallarda yandırılması, yalanın haqq adından danışılması, ölüm hökmü qarşısında həqiqətin danılmasıdır həqiqət. Onu axtarmaq üçün "ayaqlarda dəmir çıraq, əldə çomaq" gəzməyə heç bir ehtiyac yoxdur. Bunlar hər gün qarşılaşdığımız adi hallardır".

Mərziyyə Üskui haqsızlığın başı üzərində zərbəsi gözləniləndən də çox ağır bir yumruğa çevrilmişdi. Haqsızlığı, zülmü, işgəncəni, ölümü mal, pul hərislərinin, acgözlərin silahı hesab edən şairə zülümə sığışmırdı:

*Mən zülümə sığışmaram!*
*Bir ölümlə qorxutdunuz, yetər məni!*
*Bir həyata sığışmadım*
*yüz ölümə sığışmaram!*

**(Bəxtiyar Vahabzadə "Mərziyyə")**

Təbrizdə, Tehranda şahlıq istibdadı əleyhinə xalq hərəkatı gücləndikcə Mərziyyədə inqilaba qoşulmaq meyli daha da artmış və o, SAVAK-a, polis dəstəsinə qarşı şiddətlənməkdə olan silahlı mübarizə sıralarına qoşulmuşdur. SAVAK insanları tilsimli qılınc kimi kəsib-biçdiyi, açıq və gizli zindanları ağzına qədər doldurduğu bir zamanda gəlmişdi Mərziyyə Tehrana və hərəkatın ön sıralarında addımlamışdır. O, bir əli tüfəngli, bir əli qələmli həm şah xəfiyyələri, ordu hissələri ilə döyüşür, həm də vətən cəlladlarına kəskin tənqidi şeirlər yazırdı.

Bu dövrün sociyyəvi cəhətləri haqqında Xalq yazıçısı, akademik Mirzə İbrahimov "Ümid və kədər poeziyası" məqaləsində yazırdı: "SAVAK-ın casusları, satınalma gədəgüdələri yer qalmırdı ki, burunlarını soxmasınlar. Cəmiyyətdə kökü tarixin dərinlərinə gedən yasaqlar, qadağalar, təqiblər, ölümlər siyasəti coşurdu. Zülmkar hakimiyyətin öz məntiqi, öz qanunları var: Onun başında duranların varlığına mütləq bir kütlük hakim olur. Onlar əllərində olan hüdudsuz ixtiyardan, hakimiyyətin verdiyi qüvvədən axmaqcasına istifadə edərək xalqa təzyiqi daha da gücləndirirlər. Unudurlar ki, fizikanın "təzyiq, əks-təzyiq doğuran" qanunu elə ictimai həyata, dövlət quruluşuna da aiddir. İmperiyaların və müstəbid hakimlərin faciəli sonu bunu dönə-dönə sübut etmişdir".

*Çerik hərəkatı başlanan zaman*
*Şahın bağırtısı qopdu saraydan:*
*"Şübhəli adamlar damlansın gərək".*
*Calandı dalbadal fərman fərmana*
*Bu zaman peşəkar inqilabçıtək*
*Qəsdən Mərziyyə də gəldi Tehrana.*

**(Bəxtiyar Vahabzadə "Mərziyyə")**

Qız zərif çiyninə çanta, gül səbəti, su küzəsi götürməli olduğu halda, Mərziyyə o kövrək çiyninə yerbəyerdən yaralanmış Vətənini götürmüşdü. Mərziyyə millətin millətliyini onun fikrinin zənginliyində, ləyaqətində, qeyrətində, azadlığında görürdü. O, xalqını kölə, qul deyil, hərtərəfli azad görmək istəyirdi. Xalqının üstündən köləlik damğasının birdəfəlik götürülməsi, onun özünün və dilinin azad edilməsi üçün bir an belə durmadan inqilabi fəaliyyət göstərirdi:

*Zülmlərdə qalsa da,*
*Ömrünün bahar yaşı,*
*Getdin həmyaşlarınla*
*Üzü tufana qarşı,*
*Mərziyyə.*

**(Mədinə Gülgün "Mərziyyə")**

M.Üskuinin siyasi və inqilabi fəaliyyətinin getdikcə genişlənməsi rejimin məmurlarının narahatlığına səbəb olur və onların ona qarşı qəzəbini daha da artırırdı. Mərziyyəyə qarşı görülən cəza tədbirləri də çoxaldılırdı. O isə tutduğu haqq yolundan dönmədən bu yolu davam etdirmək üçün bütün imkanlardan istifadə edir, hətta silahlı mübarizənin önündə gedirdi.

*...Görən nəymiş SAVAK-ı belə qəzəbləndirən?*
*Şahın tulalarını cin atına mindirən?*
*Bu çəlimsiz, bu zərif, üzdən fağır qızcığaz*
*Qeyrəti çəkisindən yüz qat artıq qızcığaz.*
*Hədələrə, qorxuya niyə təslim olmadı?*
*Onun iradəsi də niyə susdurulmadı?*

**(Bəxtiyar Vahabzadə "Mərziyyə")**

Azərbaycan şairi Əli Tudə həssas duyğulu, böyük vətənpərvər, xalqsevən Mərziyyə Əhmədi Üskui kimi bir qələm sahibinə daha çox ehtiyac olduğu halda ona atəş açılmasını, onun əbədilik susdurulmasını heç cürə qəbul edə bilmirdi:

*Düşmən anlamadı. Qədim sənətin*
*Təzə diləyinə atəş açdı o.*
*Bəli! Həm dünyanın, həm də xilqətin*
*Nadir əməyinə atəş açdı o.*

*Güllə yağışında alışdı, yandı*
*Sənət baharının zərif çiçəyi.*
*O, bir tonqal oldu, neçə zamandı*
*Oduyla isidir min-min ürəyi.*

**(Əli Tudə "Təəssüb")**

Mərziyyə Üskuinin evi səngər, sevgilisi silah, qucağının körpəsi tüfəng, belinin kəməri patrondaş, barmağının üzüyü tapança tətiyinin qabarı, dırnağının manikürü al qanı, sinəsinin medalyonu güllələr, gəlinlik örpəyi Qəsr qalasının dəmir barmaqlıqları, gərdəyi qaranlıq, rütubətli zindan, ayağına səpiləcək çiçəklər isə Avropanın yad yolları olmuşdur. Onun məhəbbət söyləmək, şirin layla, dərs demək üçün yaranan dodaqları insanları zəlalətdə saxlayan mənfur şahlıq rejiminə qarşı üsyana çağırmışdır.

Şair xalq üçün, Vətən üçün ürəkdən yanmasa, həmvətənlərinə haqq yolunu düzgün göstərə, onları öz azadlığı uğrunda mübarizəyə istiqamətləndirə və ruhlandıra bilməz. Mərziyyə həyata yaşamaq deyil, özünü yandırıb başqalarını yaşatmaq üçün gələn şairlərdən idi. Elə ona görədir ki, onun əqidə, amal yoldaşı Əşrəf Dehqani "Bir yoldaş haqqında xatirələr" kitabında şairəyə həsr etdiyi xatirəsini "Səməndər quşu" adlandırmışdır.

M.Ə.Üskui 1974-cü ildə düşmənlə üzbəüz gərgin döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Şairə, şeirə atəş açmağı dünyada ən ağır cinayət hesab edən o taylı-bu taylı Azərbaycan şairi Əli Tudə... 

Haqsızlıqlara nifrət, azadlığa olan tükənməz sevgi Mərziyyə Üskuini yalnız qələmi ilə mübarizə etməklə kifayətlənməyə qoymamış, onu silahlı çarpışmaların da qoynuna atmışdır. O, həyata çox böyük ləyaqətlə - qələmlə başladı, onu əzmlə, vüqarla - silahla başa vurdu. Mərziyyə qələmdən və silahdan Vətənin, xalqının azadlığı naminə birlikdə istifadə etdi, həyatını məşələ çevirdi. O, qaranlıqlar içində nurlu mayak kimi xalqının gələcəyinə yol açırdı. Mərziyyə Üskui Azərbaycanın qəhrəmanlıq tarixini öz adı ilə daha da zənginləşdirdi.

F.e.d. Minəxanım Təkləlinin "Başım baxtı, evim taxtı. Qadın" adlı məqaləsində yazdığı kimi "Azərbaycanın tarixi keçmişi həm də Həcərlə, Rüstəmə ilə, Zeynəb Paşa, Mərziyyə Üskui ilə zəngindir".

Mərziyyə Əhmədi Üskui yalnız o taylı-bu taylı Azərbaycanın deyil, türk xalqlarının alqışını qazanmış şairəsi və fədai şəhididir.

*Lətifə MİRZƏYEVA*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi*